ŞƏFFAFLIQ
AZƏRBAYCAN

Organization for Security and Co-operation in Europe
office in Baku

**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az

*MƏTBUAT ÜÇÜN MƏLUMAT*

# Deputat köməkçiləri ALAC layihəsinin vacibliyini vurğuladılar



**19 Fevral** – "Şəffaflıq Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" (ALAC) layihəsi üzrə fəaliyyət göstərən Lənkəran və Gəncə Regional Mərkəzinin əməkdaşları müvafiq olaraq 4-6 və 10-12 fevral 2009-cu il tarixlərində ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən maliyyələşdirilən "Azərbaycan Parlament Proqramı" layihəsi çərçivəsində Azərbaycan Respublikası Milli Məclis deputatlarının köməkçiləri üçün keçirilmiş təlimlərdə ekspert qismində iştirak etmişlər. DAI konsaltinq şirkətinin dəstəyi ilə "Azərbaycan Parlament Proqramı" çərçivəsində həyata keçirilmiş tədbirlərdə Mərkəzlərin əməkdaşları iştirakçılara ALAC layihəsinin fəaliyyəti ilə bağlı geniş müzakirələr aparmış, korrupsiyaya qarşı mübarizə haqqında beynəlxalq və milli hüquqi sənədlər haqqında məlumat və praktiki məsləhətlər vermişdilər. Müzakirələr zamanı tədbir iştirakçıları vətəndaşların problemlərin həllində köməkçi vasitələrdən biri kimi ALAC layihəsinin vacibliyini xüsusi qeyd etdilər.

*2005-ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) və ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz.*